# Məmmədrza Şeyxzamanov anıldı

**Dekabrın 15-də Dövlət Film Fondunda görkəmli teatr və kino aktyoru, Xalq Artisti Məmmədrza Şeyxzamanovun anadan olmasının 100 illiyinə həsr edilmiş xatirə gecəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, xatirə gecəsi Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı və Dövlət Film Fondunun birgə təşkilatçılığı ilə reallaşıb.

Gecədə mərhum aktyorun sənət dostları, yaxınları və bir sıra tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Əvvəlcə qonaqlar sənətkarın həyat və yaradıcılığını əks etdirən sərgi ilə tanış olublar.

Dövlət Film Fondunun direktoru, Əməkdar İncəsənət Xadimi Cəmil Quliyev çıxış edərək unudulmaz sənətkarın kino və teatr fəaliyyətindən, Azərbaycan kino mədəniyyəti tarixindəki müstəsna xidmətlərindən, professional səhnə məharətindən söz açıb.



Bildirilib ki, onlarla müxtəlif filmlərdə biri-birindən maraqlı və yaddaqalan obrazlar yaradan sənətkar, əsrlər keçsə də xalqının yaddaşında yaşayacaq.

Gecədə unudulmaz sənətkarın ailəsinin 1937-ci ildə repressiyaya məruz qalmasından, bu illər ərzində onun keçdiyi məşəqqətli həyat yolundan söz açılıb.

Daha sonra kinorejissor, Əməkdar Artist Elxan Qasımov Məmmədrza Şeyxzamanovla bağlı xatirələrini bölüşüb.

Sonda Sənətkarın rol aldığı filmlərdən fraqmentlər nümayiş olunub.